## RƏMZİ İDİ ONUN ADI...

Sizə bir oğuldan danışacam
Atasının, anasının ilk göz nuru
Evin böyük övladı!
Rəmzi idi onun adı...
Böyük övlad, qardaş idi
Arxa, dayaq, sirdaş idi
Varlığı ilə böyük ümid,
Böyük inam, mətanətdi,
Dəyanətdi...
Evə, elə yaraşardı!

Xəyalları qanadlanıb,
Ulduzlara qarışardı!
Ürəyində arzuları çağlayardı
İstədiyi Günəş boyda bir işıqdı
Amma onun gözündəki işıqlarda
Gizli kədər ağlayardı..
Arzu dolu ürəyinin
Ən layiqli, uca sözü
Haqq və hüquq,
Ədalətdi, ədalətdi
İstədiyi Günəş boyda bir işıqdı...
Qaranlığı yarıb keçə!
Ümidiydi, hədəfiydi
Haqqın qalib şərbətini
Haqqı olan süzüb içə!
Əqidəsiylə, məsləyilə
Haqq olanlar haqsızlığı üzüb keçə!

O Rəmzidir! Vətən sənin Şəhid oğlun!
Arzusunda ədaləti yaşadanda
Ədalətin şüarı ilə o könüllü
Düşmən ilə üzbəüzə atlananda
Anasının bər-bəzəkli, toy-büsatlı
Rəmzi deyən xəyalları yasa döndü
O kədərin gizləndiyi gözlərdəki
İşıq söndü...!
O gedərkən könüllüydü
Qayıdarkən könülsüzcə -
Tabut döndü....

Bir atanın qəlbindəki Rəmzi adlı
Ümid öldü,
Bir ananın üzündəki şəfəq soldu
Bir bacının baxışında nisgil güldü
Qardaşların sinəsinə qübar doldu
Səndən ötrü candan keçən
Haqqı duyan, haqqı seçən
Düşməni anında biçən
Bu igidin adı Rəmzi...
Ədalətin, dəyanətin
Torpaq üçün rəşadətin
Cəsurluğun, mətanətin
Sənin üçün şəhadətin
Odur, odur, odur rəmzi!
Cəsur, igid, bir də təmənnasız Rəmzi!

## QADIN

Könül dünyamızı bir kitab sansaq
Ordakı ən gözəl yazıdır qadın!
Dünya qarlı qışdır, buz ağlayacaq,
O qışın baharı, yazıdır qadın!

Anadır, dizində sən rahat uyu,
Bacıdır, anadan biçimi, suyu,
Qızınmı? Pəriidir, mələkdir huyu,
Şehli bir çiçəyin nazıdır qadın!

Soyuq nəzərin də qəlbini üzər,
İncitsən yanağa incilər süzər,
Zərif varlığı ilə susar, hey dözər,
Elə bilərsən ki, razıdır qadın!

Qəlbində tufanlar qopar, yel əsər,
Başından qovğalar keçsə sərasər,
Səadət bəxş edər, yavrusun bəslər,
Yuvası uğruna qazidir qadın!

**Naidə CƏFƏRLİ**

